AYLIQ BÜLLETEN
İyun
2024-cü il

Azərbaycan Mikromaliyyə Assosiasiyası

AMFA

Azerbaijan Micro-finance Association

189-cı buraxılış

AMFA-nın Missiyası

Mikromaliyyə qurumlarının potensialını gücləndirmək və mikro maliyyə icmasının və müştərilərinin maraqlarını təmin etmək üçün effektiv kollektiv fəaliyyətinin təşviq edilməsidir.

Bu nömrədə:

1. AMFA İcraçı Direktoru BƏT-in sessiyasında iştirak edib

2. “Azərbaycan Beynəlxalq Sığorta Forumu – 2024”

3. “İqlimə davamlı təcrübələr, dayanıqlı kənd təsərrüfatı və su idarəçiliyi sahəsində qadın və gənclərin rolu” mövzusunda konfrans

4. AFA strateji həftəsi

5. 5-ci “Yerli şirkətlərin tanıtım sərgisi”

6. Mentorluq proqramına start verildi

7. Üzvlər güşəsi

8. Peşəkar İnkişaf

İyun 2024
Bakı, Azərbaycan

AMFA İcraçı Direktoru BƏT-in sessiyasında iştirak edib

06 iyun 2024-cü il tarixində, Cenevrədə (İsveçrə) Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv ölkələrin hökumət nümayəndələri və sosial tərəfdaşların iştirakı ilə Beynəlxalq Əmək Konfransının 112-ci sessiyası keçirilib.

Beynəlxalq Əmək Konfransında Azərbaycanı hər il olduğu kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyasından ibarət üçtərəfli nümayəndə heyəti təmsil edib. Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva, ASK-nın vitse-prezidenti olaraq konfransda iştirak edib.

Azərbaycan Beynəlxalq Sığorta Forumu – 2024

20 iyun 2024-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı və İcbari Sığorta Bürosunun strateji dəstəyi, Azərbaycan Sığortaçılar Assosiasiyası ilə beynəlxalq "Xprimm" şirkətinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan Beynəlxalq Sığorta Forumu - 2024"-də AMFA Icraçı Direktoru Jalə Hacıyeva və AMFA Müşahidə Surasının üzvü Lütvəli Zeynallı iştirak edib.

İki gün davam edən Forumda avtonəqliyyat və sağlamlıq sığortaları, habelə iqlim risklərinin idarə edilməsində sığortanın rolu kimi lokal və qlobal sığorta bazarları üçün aktual olan mövzular ətrafında panel müzakirələr aparılıb.

Azərbaycan Beynəlxalq Sığorta Forumu-2024-ün (AIIF-2024) açılış mərasimində Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov deyib ki, Azərbaycanın sığorta sektorunun aktivləri son üç ildə 34 faiz artıb.

Forumda çıxışı zamanı kənd təsərrüfatı naziri Məcnun Məmmədov isə əlavə edib ki, yaxın gələcəkdə Azərbaycan kənd təsərrüfatı sığortasının əhatə dairəsini genişləndirməyi və iqlim dəyişikliyinin kənd təsərrüfatı sektoruna təsirini minimuma endirmək üçün daha innovativ sığorta məhsullarını tətbiq etməyi planlaşdırır.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Azərbaycan Beynəlxalq Sığorta Forumu-2024-ün (AIIF-2024) açılış mərasimində çıxışı zamanı qeyd edib ki, Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqində məqsəd universal və dayanıqlı tibbi sığortanın təmin edilməsidir.

“İqlimə davamlı təcrübələr, dayanıqlı kənd təsərrüfatı və su idarəçiliyi sahəsində qadın və gənclərin rolu” mövzusunda konfrans

28 iyun 2024-cü il tarixində Bakıda “İqlimə davamlı təcrübələr, dayanıqlı kənd təsərrüfatı və su idarəçiliyi sahəsində qadın və gənclərin rolu” mövzusunda konfrans keçirilib. Konfrans ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası, cari ildə Azərbaycanın ev sahibliyi edəcəyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində həyata keçiriləcək tədbirlərin təşkili və bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyinin Tədbirlər Planına uyğun olaraq təşkil olunub.

Konfransda AMFA Layihə Rəhbəri Kristina Məmmədova iştirak edib.

AFA strateji həftəsi

“AFA strateji həftə” çərçivəsində 4-6 iyun tarixlərində İsmayıllı rayonu Basqal Resort & Spa otelində “Strateji planlaşdırma” mövzusunda təlim keçirildi.

4-5 iyun tarixlərində AFA fakültə üzvü Ramil Məhərrəmov 2024-2028 illər strateji dövr üçün aşağıdaki mövzulara toxundu:

- Mövcud vəziyyət, missiya, vizyon, risklər və çağırışlar, strateji prioritetlər;
- Xarici və daxili mühitin təhlili;
- Sənaye və Bazar seqmentinin təhlili;
- Korporativ strategiya, strateji mövqeləşdirmə, biznes strategiyası, strateji məhsullar və imkanlar;
- Strateji layihə təşəbbüsləri;
- Müştəri bazası, texnologiyalar və dəyər zəncirinin təhlili;
- Əməliyyatların idarə etme çərçivəsi.

6 iyun tarixində AFA fakültə üzvü Şəmsiyyə Mustafayeva aşağıdaki mövzulara toxundu:

- İnkişaf təfəkkürü və onun liderliklə əlaqəsi;
- İnkişaf təfəkkürünü təcəssüm etdirən liderlik nümunələri;
- İnkişaf təfəkkürünü mənimsəmək üçün komandaları ruhlandırmaq və həvəsləndirmək üçün strategiyalar;
- Peşəkar inkişafda strukturlaşdırılmış rəyin əhəmiyyəti;
- Situasiya-Davranış-Təsir modeli.

Təlimdə 11 assosiasiyadan 20 nəfər iştirak etmişdir.

Həmçinin, təlimlərdə AFA fakültə üzvləri, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin KOB dostu, layihə tərəfdaşları və AMFA Müşahidə Şurasının üzvü daxil olmaqla 9 nəfər, toplamda isə 29 nəfər iştirak etmişdir.

AFA strateji həftəsi

“AFA strateji həftə” çərçivəsində 7- 9 iyun tarixlərində İsmayıllı rayonu Basqal Resort & Spa otelində AFA Akademiyasının görülmüş işləri barədə məlumatlandırma və gələcəkdə işlərinin planlaşdırılması məqsədi ilə “Fakültə üzvlərinin strateji görüşü” keçirildi.

“Fakültə üzvlərinin strateji görüşü”ndə 9 AFA fakültə üzvünün, layihə tərəfdaşların iştirakı ilə toplamda 15 nəfər iştirak etmişdir.

7 iyun tarixində AFA layihə rəhbəri Kristina Məmmədova açılış nitqi ilə başladı və AFA Akademiyası barədə aktual məlumatları iştirakçılar ilə bölüşdü. Daha sonra fakültə üzvü Şəmsiyyə Mustafayeva 2030-cu ilədək strateji dövr üçün məqsədimiz, istiqamətimiz və uğur meyarları barədə fakültə üzvləri ilə birgə müzakirə etdi. 8 iyun tarixində AFA fakültə üzvü Vüqar Sadiq Peşəkar Etika mövzusunda təqdimatını etdi. Daha sonra fakültə üzvü Şəmsiyyə Mustafayeva strateji hədəflərin təyin olunması, növbəti addımların planlaşdırılması mövzusunda fakültə üzvləri ilə müzakirə apardı.

9 iyun tarixində AFA layihə rəhbəri Kristina Məmmədova maraqlı tərəflərin səmərəli cəlb etmə strategiyalarını müzakirə etdi.

5-ci “Yerli şirkətlərin tanıtım sərgisi”

24-26 iyun 2024– cü il tarixlərində Bakı Ekspo Mərkəzində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Marsol Group-un birgə təşkilatçılığı ilə AFA Layihəsinin benefisiarı olan İş Adamları Cəmiyyətinin Milli Assosiasiyasının (İCMA) tərəfdaşı olduğu 5-ci “Yerli şirkətlərin tanıtım sərgisi” baş tutdu.

Sərgidə qida, İKT, təhsil, inşaat, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox yerli şirkət öz məhsul və xidmətlərini minlərlə ziyarətçiyə nümayiş etdirdi.

Həmçinin, sərginin açılış günündə AFA Layihəsinin layihə rəhbəri Kristina Məmmədova, layihə konsultanlı Vüsalə Lətifova, layihə tərəfdaşı Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli və AKTA, AQSA, ANEŞA layihə benefisiarları ziyarətçi kimi iştirak etmişdirlər.

European Bank
for Reconstruction and Development

Funded by
the European Union

FSI CONSULTING
Finance & Social Innovation

Mentorluq proqramına start verildi

“Finance and Social Innovation Consulting” MMC (FSIC) Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə əməkdaşlıq edərək Avropa İttifaqının maliyyə dəstəyi ilə sahibkar qadınlar üçün mentorluq proqramına start verdi.

Proqram çərçəivəsində 15 qadın sahibkar seçiləcək və onlar fəaliyyət sahəsinə və ya üzləşdikləri problemlərə uyğun olaraq mentorlarla fərdi şəkildə məşğul olacaqlar.

Proqram sahibkarlığın inkişafı üçün bir çox mühüm mövzuları əhatə edir ki, bu da hər bir sahibkarın ehtiyaclarını ödəmək üçün fərdi şəkildə hazırlanır. Bu mövzular aşağıdakılardan ibarətdir: biznesin idarə edilməsi, liderlik, münaqişələrin həlli və risklərin idarə edilməsi bacarıqları, eləcə də təşkilatın strateji planlaşdırılması və inkişafı, marketinq, brendinq və təşkilati inkişaf.

Proqram nəticəsində 15 qadın sahibkar öz biznes və liderlik bacarıqlarını, özünəinamı, münaqişələrin idarə edilməsi bacarıqlarını inkişaf etdirmək və peşəkar şəbəkə yaratmaq üçün təcrübəli mentorlardan məsləhətlər alacaqlar.

TuranBank

32 ildir etibarlı tərəfdaşınız olmaqdan qürur duyuruq!

1992-ci ildə fəaliyyətə sektorunda dayanıqlılığı ilə seçilən, müştərilərin inam və rəğbətini qazanan, biznesdə etibarlı tərəfdaş imicini qoruyub saxlayan TuranBank bu illər ərzində geniş inkişaf yolu keçərək ölkənin böyük maliyyə qurumlarından birinə çevrilmişdir.

Üzvlər güşəsi

Fəaliyyətinin 32-ci ilini qeyd edən Bank bu illər ərzində bir çox uğurlara imza atmış, xüsusilə kiçik və orta sahibkarlara dəstək olmaqla ölkədə özəl sektorun inkişafına öz töhfəsini vermiş, rəqəmsal bankçılığın yaratdığı imkanlardan maksimum faydalanmaqla müştərilərin bank xidmətlərindən daha rahat, operativ və təhlükəsiz istifadəsini təmin etmişdir. Fəaliyyətində peşəkarlıq, etibarlılıq və yüksək korporativ mədəniyyət meyarlarını rəhbər tutan TuranBank bu illər ərzində öz maliyyə sabitliyini qoruyub saxlamış, biznes subyektlərinin maliyyələşməsi sahəsində öz mövqeyini daha da gücləndirmişdir. Həmçinin 800-ə yaxın əməkdaşı ilə 22 satış nöqtəsində 150 mindən çox əhali və biznes subyektlərini maliyyə xidmət və məhsulları ilə təmin etməklə müştəri bazasını genişləndirməyə müvəffəq olmuş və əldə etdiyi nailiyyətlərə əsaslanaraq qarşıdan gələn dövrlərdə də uğurlarını davam etdirmək əzmindədir.

Fəaliyyət göstərdiyi müddətdə Bank rəqəmsallaşmanın imkanlarından daha çox yararlanmağa çalışaraq xidmət səviyyəsini yüksəltmək məqsədilə mühüm dəyişikliklər həyata keçirmiş və hazırda yenilənmiş İnternet bankçılıq sistemi, bir sıra funksionallıqları ilə daha da təkmilləşdirilmiş Mobil tətbiqi ilə müştərilərinə rahat və məsafədən bank xidmətləri göstərməklə dövrün tələbinə uyğun rəqəmsal məhsullar təklif edən yenilikçi bank kimi müştərilərin rəğbətini qazanmışdır.

TuranBank adından 32 il ərzində qazanılmış uğurlarda payı olan hər kəsə dərin təşəkkür edir və həyata keçirdiyi hər bir layihədə müştəri və tərəfdaşlarının keyfiyyət gözləntilərini aşacağına əminliyimizi bildirirk. Çünki adı güvən, imzası etibar yaradır!

Faktorinq forumuna qeydiyyat başladı!

Üzvlər güşəsi

“PAŞA Bank” “PMD Projects” ilə tərəfdaşlıq çərçivəsində tikinti və təmir sektorunda fəaliyyət göstərən bizneslərə ödəniş və təchizat imkanlarının araşdırılması, alternativ ödəniş modelləri ilə tanışlıq və faktorinq məhsulunun istifadəsi barədə məlumat vermək məqsədilə faktorinq forumuna qoşulmağa dəvət edir.

16 iyul tarixində keçiriləcək foruma qoşulan iştirakçılar faktorinq məhsulu vasitəsilə maliyyə əməliyyatlarının nizamlanması, ödəniş dövriyyələrinin azaldılması və gecikdirilmiş ödənişlərlə bağlı risklərin aradan qaldırılmasına dair ətraflı məlumat əldə edəcəklər.

Tədbir çərçivəsində, növbəti dövrdə birgə iş imkanları, işgüzar əlaqələr və əməkdaşlıq istiqamətləri müəyyənləşdiriləcək.

Ətraflı məlumat və qeydiyyat üçün: https://pshb.az/4cfde4S

Peşəkar İnkişaf

AMFA üzvləri və tərəfdaşları Frankfurt School 2023 -cü il üzrə e-tədris proqramlarına endirim edir!!!

Frankfurt School of Finance & Management

German Excellence. Global Relevance.

Məmnunluqla bildirmək istərdik ki, AMFA-nın Frankfurt School ilə tərəfdaşlıq müqaviləsi yenilənmişdir! Bu tərəfdaşlıq AMFA üzvlərinə beynəlxalq təhsil imkanlarını araşdırarkən daha çox üstünlük əldə etməyə imkan verəcək!

Bütün proqramlar üçün https://www.fsd/e-Campus-da AMFA üzvləri üçün 10% and 5 % endirim!!!

Kodunuzu əldə etmək üçün member_services@amfa.az ilə əlaqə saxlayın



Daha ətraflı məlumat üçün keçiddən istifadə edin: Frankfurt-school

Ekspert e-tədris kursları cədvəli üçün növbəti səhifəyə baxın:

Frankfurt Biznes Məktəbində 2023

Maliyyə Xidmətləri	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Microfinance (New version)	3	EN, FR	900 EUR	700 EUR
Islamic Microfinance	3	EN	900 EUR	700 EUR
Agricultural Finance	3	EN, FR, TR	900 EUR	700 EUR
SME Finance	6	EN, FR	1,550 EUR	1,350 EUR
Digital Finance	6	EN, FR	1,550 EUR	1,350 EUR
Financial Inclusion Policy	6	EN	1,550 EUR	1,350 EUR
Microinsurance	6	EN	1,550 EUR	1,350 EUR
ESG & Impact Investing	6	EN	1,550 EUR	1,350 EUR

Yaşıl Maliyyə*	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Climate & Renewable Energy Finance	6	EN	1,700 EUR	1,485 EUR
Climate Adaptation Finance	6	EN	1,700 EUR	1,485 EUR
Sustainable Finance	6	EN, DE	1,700 EUR	1,485 EUR
Agricultural Finance (New version)	3	EN, FR, TR	900 EUR	700 EUR
Financing NDCs	3	EN, FR	900 EUR	700 EUR
ESG & Impact Investing	6	EN	1,700 EUR	1,485 EUR

Risklərin təhlili	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Risk Management	6	EN, ES, FR	1,550 EUR	1,350 EUR
Financial & Managerial Accounting	6	EN	1,550 EUR	1,350 EUR
NPL Management	6	EN	1,550 EUR	1,350 EUR
Risk Management, Corporate Governance & Compliance	6	EN	1,550 EUR	1,350 EUR

Digər onlayn proqramlar	ECTS	Dil	Ödəniş	Erkən qeydiyyat üçün ödəniş
Master of Leadership in Sustainable Finance	60	EN	17,500 EUR	N/A
Diploma in Financial Inclusion	20	EN	7,890 EUR	6,706.5 EUR
Diploma in Green Finance	20	EN	7,890 EUR	6,706.5 EUR

Azərbaycan Mikromaliyyə Assosiasiyası

AMFA

Azerbaijan Micro-finance Association

www.amfa.az

@AMFA.Azerbaijan

@AMFAAzerbaijan

@AMFA

@amfaaz

+994 12 437 16 45

AZ1065, Azərbaycan, Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44, Kaspian Plaza 1, 5-ci mərtəbə